Wood Təlimatı

# İşçinin Səhm Planı

## Vergi Təlimatı – Azərbaycan



*Bu məlumat yalnız təlimat xarakteri daşıyır və sizin şəxsi vəziyyətinizdən asılı olaraq dəyişə bilər. "Gəlir vergisi və səyyar işçilər üçün sosial sığorta" bölməsi istisna olmaqla, verginin tətbiqi ilə bağlı sizin Azərbaycanda yaşadığınız, bu ölkənin vətəndaşı və rezidenti olduğunuz və bütün önəmli dövrlərdə belə olduğu/olacağı nəzərdə tutulur – önəmli dövrlər dedikdə, məsələn, Plan çərçivəsində ilk səhmlərinizi aldığınız gündən Plan dövrünün sonuna, 24 aylıq müddətin sonuna qədər olan müddət nəzərdə tutulur – bu, Gözləmə Müddəti kimi başa düşülür.*

*"Gəlir vergisi və səyyar işçilər üçün sosial sığorta" bölməsi, Azərbaycandan kənarda işləmiş şəxslər üçün səhmlərə tətbiq olunan vergi məsələlərini izah edir – bu məqsədlə, sizin müvafiq vaxtlarda işlədiyiniz ölkələrdə vergi rezidenti olduğunuz güman olunur.*

*Bu sizin şəxsi vəziyyətinizə uyğunlaşdırılmış vergi məsləhəti deyil. Əgər siz öz şəxsi vergi vəziyyətinizin təsdiqini tələb edirsinizsə, o zaman peşəkar vergi məsləhətçisi ilə əlaqə saxlamalısınız.*

*Bu məlumat 6 noyabr 2018 tarixində doğrudur. Gələcəkdə qanunvericiliyə ediləcək hər hansı dəyişikliklər və ya vergi dərəcələri bu məlumata təsir edə bilər.*

---

**Gəlir vergisi və sosial sığorta**

*Mən öz Səhmlərim ilə bağlı gəlir vergisi və ya sosial vergi ödəməliyəm?*

Aşağıdakı cədvəl vergi ilə bağlı məqamları və Plan çərçivəsində alınan səhmlər üzrə vergi tutulacaq məbləği izah edir.

| | Gəlir vergisi və Sosial Vergi | |
|---|---|---|
| | **Hansı məqamda vergi ödəniləcək** | **Vergi tutulan məbləğ** |
| **Alınmış Səhmlər** | Heç bir gəlir vergisi və ya sosial vergi tətbiq olunmayacaq. | Mövcud deyil |
| **Uyğunluq Səhmləri** | Gəlir vergisi və sosial sığorta Gözləmə Müddətinin başa çatmasından sonra sizin şəxsi hesabınıza Uyğunluq Səhmləri çatdırılandan sonra ödənilməlidir. Bu, Tədarük Tarixi kimi tanınır. | Vergiyə tabe tutulan məbləğ səhmin tədarük tarixində olan bazar qiyməti olacaq.<br><br>Sosial vergi də gəlir vergisinə tabe tutulan məbləğ ilə eyni məbləğdə ödənilməlidir. |
| **Dividend Səhmləri** | Dividend Səhmləri əldə etmək üçün istifadə olunan nağd dividendləriniz əldə olunan andan etibarən vergiyə tabe tutulacaq. | Gəlir vergisinə tabe tutulan məbləğ, alınan və Dividend Səhmləri əldə etmək üçün istifadə olunan nağd dividendlərdir. |

*Səhmlərimlə bağlı gəlir vergisini və sosial vergini necə ödəyə bilərəm?*

İşəgötürəniniz Uyğunluq Səhmləri üzrə vergi və sosial vergi ödənişlərini məbləğdən çıxacaq. İşəgötürəniniz Dividend Səhmlərini əldə etmək üçün istifadə olunan dividend gəlirinə görə hər hansı gəlir vergisini məbləğdən **çıxmayacaq**. Dividend gəlirinə görə nəzərdə tutulan məbləğə görə siz məsuliyyət daşıyırsınız.

### Səyyar işçilər üçün gəlir vergisi və sosial sığorta

*Əgər Gözləmə Müddətinin yalnız bir hissəsini Azərbaycanda keçirmişəmsə Səhmlərimlə bağlı gəlir vergisi və ya sosial sığorta ödəməliyəm?*

Əgər Uyğunluq Səhmlərinin tədarükü tarixində siz Azərbaycanda vergi rezidentisinizsə, sizin uyğunluq səhmləriniz bütün mənfəətə görə Azərbaycanda vergiyə tabe tutulacaq. Əgər qeyri-rezidentsinizsə, o zaman Azərbaycanda qaldığınız müddətə əsasən vergiyə tabe tutulacaqsınız.

*Səhmlərimlə bağlı gəlir vergisini və sosial sığortanı necə ödəyə bilərəm?*

İşəgötürəniniz Uyğunluq Səhmləri üzrə vergi və sosial sığorta ödənişlərini məbləğdən çıxacaq.

### Səhmlərin satışı

*Səhmlərimi satan zaman əlavə vergi öhdəliyinə və sosial vergiyə tabe tutulacağam?*

Bəli, səhmləri satdığınız zaman əldə olunan mənfəətdən gəlir vergisini ödəmək öhdəliyi daşıyırsınız. Vergiyə tabe tutulan mənfəətin miqdarı satışdan əldə olunan gəlir ilə aşağıdakıların cəmi arasındakı fərq kimi hesablanır: (i) səhmlərə görə ödədiyiniz məbləğ (satın alınmış və dividend səhmlərinizə görə) və (ii) daha əvvəl gəlir vergisinə tabe tutulmuş hər hansı məbləğ (uyğunluq səhmlərinizə görə).

Vergiyə tabe tutulan mənfəətlə bağlı hesabat verməyə və ödəniləsi hər hansı vergini ödəməyə görə siz məsuliyyət daşıyırsınız.

### Hesabatlılıq

*Mənim hər hansı hesabat vermə öhdəliklərim var?*

Əgər səhmlərinizi satırsınızsa vergi hesabatını doldurmağınız sizdən tələb oluna bilər. Uyğunluq səhmləri üzrə vergi mənbəyində tutulacaq və işəgötürəniniz tərəfindən hesabatı veriləcək. Bununla belə, səhmlərin satışından gələn növbəti gəlirlərin hesabatı işəgötürəniniz tərəfindən verilməyəcək və siz vergi hesabatı təqdim etməli olacaqsınız.

**Vergi dövrü**: 1 yanvar - 31 dekabr

**Hesabat dövrü**: 31 mart

### Əlavə 1 - müvafiq vergi dərəcəsinin xülasəsi

Əlavə olunan sənəddə 31 dekabr 2018 tarixində başa çatan vergi ili üçün Azərbaycandakı müvafiq vergi dərəcələri qeyd olunub.

| **Gəlir vergisi** | | |
|---|---|---|
| | **Maksimum vergi dərəcəsi** | **Qeydlər** |
| Gəlir vergisi | 25% | Gəlir vergisi ya 14% ya da 25% olmaqla tutulur. Maksimum dərəcə ildə 30000 AZN-dən çox olan gəlirə tətbiq olunur |

| **Sosial Sığorta** | | |
|---|---|---|
| | **İşçi** | **Qeydlər** |
| Sosial Sığorta | 3% | Maksimum dərəcə bildirilməyib |

| **Dividendlər və mənfəət vergisi** | | |
|---|---|---|
| | **Maksimum vergi dərəcəsi** | **Qeydlər** |
| Dividendlər | 25% | |
| Mənfəət | 25% | |